# ABŞ haqsız mövqeyini dəyişdi



ABŞ-nin Dövlət katibi Antoni Blinkenin Azərbaycan Prezidenti İlham Əliyevlə noyabrın 27-də baş tutan telefon danışığı zamanı bir sıra məqama xüsusi diqqət çəkildi. Prezident İlham Əliyev bildirib ki, son dövrlər ABŞ-nin ölkəmiz əleyhinə yönəlmiş bəyanatları və atdığı addımlar iki dövlət arasındakı münasibətlərə ciddi zərər vurdu. Dövlət başçısı, həmçinin Azərbaycanın mövqeyini tam açıqlığı ilə diqqətə çatdıraraq bildirdi ki, ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Braynın ölkəmizlə bağlı səsləndirdiyi fikirlər həqiqəti əks etdirmir və dövlətimiz tərəfindən birmənalı şəkildə rədd edilir.

Nəticədə, ABŞ öz mövqeyindən geri çəkilərək Azərbaycanla təhdid dili ilə danışmağın cavabsız qalmayacağını başa düşdü. Unutmaq olmaz ki, dövlətimiz milli maraqlarımıza toxunan məsələlərdə mövqeyini qətiyyən dəyişmir.

Bununla bağlı qəzetimizə danışan Milli Məclisin deputatı Fazil Mustafa deyib ki, ABŞ-də konqres, senat və başqaları ələ alınmış, yaxud da müəyyən dəstəklə quruma üzv seçilmiş şəxslərdən ibarətdir. Ona görə də onlar seçiciləri olan ermənilərin maraqlarını təmin etmək üçün hər cür hoqqadan çıxıblar. Bu baxımdan əsas məqam ABŞ-nin real siyasətini həyata keçirən müəyyən qurumların qərarları ilə bağlıdır.

Deputatın sözlərinə görə, ABŞ-nin ermənilərin müdafiəsi ilə bağlı akt qəbul etməsi biabırçılıqdır və bu ölkənin özünün bölgədəki imkanlarına müəyyən dərəcədə zərbə vurur: "Azərbaycanla təhdid dilində danışmaq bizim üçün qəbuledilməz olduğundan bu məsələdə də dirənişimizi və müqavimətimizi ortaya qoyuruq. Prezident İlham Əliyevin bu məsələ ilə bağlı qətiyyətli mövqeyi hər kəsə bəllidir. Azərbaycan bizim milli prinsipial maraqlarımızdan kənara çıxacaq hansısa bir addımın ölkəmiz əleyhinə təzyiq vasitəsi kimi istifadə olunmasına icazə verməyib və verməyəcək. Bunu hər kəs, eləcə də ABŞ yaxşı bildiyinə görə, elə Blinken də Prezidentimizlə bu üslubda danışmağa məcbur oldu. Onlar yaxşı başa düşürlər ki, başqa cür mümkün deyil. Biz hər zaman səmimi münasibətimizi qoruyan bir dövlət olaraq ABŞ-dən də onun adekvat qarşılığını gözləyirik".

Fazil Mustafa bildirib ki, "Azadlığı müdafiə aktı" kimi qondarma bir sənədi indi də ermənilərin müdafiəsinə həsr etmək anlaşılan deyil.

Deputat əlavə edib ki, Azərbaycan prinsipial mövqeyini davam etdirəcək: "Prezidentin məsələ ilə bağlı məlum mövqeyi də cəmiyyətimiz tərəfindən birmənalı şəkildə dəstəklənir. Kimsə Azərbaycanla təhdid dili ilə danışa bilməz. Biz müttəfiqlərimizə və əməkdaşlıq etdiyimiz dövlətlərə qarşı sərgilədiyimiz səmimiyyətimizlə seçilir, qeyri-səmimilik görəndə isə prinsiplərimizi ortaya qoyuruq".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 30 noyabr, № 261.- S.6.